**AZAD QARADƏRƏLİ**

# ƏSƏRLƏRİ

## XIV cild

**Romanlar və hekayələr**

QANUN NƏŞRİYYATI

*Bu cildə yazıçının son illərdə yazdığı iki romanı və iki hekayəsi daxil edilmişdir.*

*“Xeyrat” Azad Qaradərəlinin illər əvvəl başladığı, fəqət hansısa mətnlərin ortaya düşməsi nəticəsində ikinci plana keçdiyi üçün, uzun zaman tamamlaya bilmədiyi əsərlərindəndir. 2023-cü ilə qədər 10-15 səhifəsi yazılan romanı müəlləf, nəhayət ki, həmin ilin yanvar-may aylarında yazıb başa çatdıra bilmiş və kulis.az portalı əsəri iki ay müddətinə hissə-hissə yayımlamışdır.*

*Romanın mövzusu bir raykom katibi xanımla təhsil şöbəsinin müdiri olan gəncin nəticəsiz sevgisinin üzərində qurulub. Adamları marionetkaya çevirən kommunist rejimi onların ən ümdə hisslərini belə məhv edir və nəticədə gənclər kommunizm idealları xülyası ilə həqiqi sevgilərini kommunist partiyasına olan “sevgilərinə” qurban verirlər.*

*Atasını məhv etmiş Sovet hökumətindən qisas almaq üçün əlinə düşən ilk fürsətdən yararlanaraq yaşadığı rejimin əleyhinə Türkiyədə casusluq edən Sənubər, 1956-sı ildə Qız qalasının üzərinə milli bayrağımızı sancan Çingiz Abdullayevlə Cahid Hilaloğlunun şücaəti və onların həyatlarının acı sonluğu, dünya şöhrətli dirijor Niyazinin oğulluğu Ceyhun Kafinin Niyazilər ailəsinə vurduğu yaralar, raykomun birinci katibi Məsumə xanımın bacısı oğlu Dıqranın (Tiqranın) həyat dramı da əsərdəki maraqlı xətlərdəndir.*

*Bir sıra tarixi fakt və hadisələrlə zəngin olan romanda Sovet vaxtı şöhrətin zirvəsinə çatmış qəhrəmanın həyatının acı sonluqla – koronavirus pandemiyası ilə başa çatması bir rəmz kimi qəbul edilə bilər. Bütün çirkinliklərə – rüşvətə, korrupsiyaya, ətalətə, saxta sovet ehkamına yoluxmuş şər imperiyasının yetirməsi dəhşətli virusun qurbanı olur və özündən sonra bir iz qoymadan dünyanı tərk edir…*

*“Özünüyaradanlar”ı (ilk adı “Siftə” olmuşdur) fəlsəfi roman da adlandırmaq olar. Yazıçı, Filosof və Mühəndisin xəyali və bəlkə də elə həqiqi səyahətlərindən doğan hadisələr əsərin əsas nüvəsini təşkil edir. Sokratdan başlayıb əsərin qəhrəmanlarından olan Filosofla bitən ÖZÜNÜYARATMA fəlsəfəsi “Özünüyaradanlar”ın leytmotivini təşkil edir.*

*Romanda tez-tez müşahidə olunan şüur axını əsərə bir əlavə qatqı gətirir.*

*Bir çox əsərlərində olduğu kimi burada da müəllif oxucunu əsərə şərik edib. Məlumatlı oxucu əsəri oxuyanda çətinlik çəkməyəcək...*

*Cilddə yazıçının süjet “qohumluğu” olan iki hekayəsi də yer almışdır.*

# ÖZÜNÜYARADAN YAZIÇI

## (Ön söz)

Söz adamının yazı masası yeni fikir və ideyalar laboratoriyasıdır. İnsanın hiss və duyğularının yazarın istedadı, zəkası, təxəyyülü, mənəvi keyfiyyətləri ilə çözülməsi bəşəri tərəqqiyə də səsləyər, tənəzzülə də. Söz adamı yaza-yaza yaşayır, yaşaya-yaşaya yazır və yaradır. Yaza-yaza yaşamaq yana-yana yazmağa və yaşamağa çevriləndə yeni-yeni yaradıcılıq üfüqləri görünür, bu üfüqlər yeni-yeni uğurlara vəsilə olur.

Müstəqillik dövrünün tanınmış söz adamı Azad Qaradərəli (yaradıcılığının müəyyən qismi – buna ilk gənclik illəri də deyə bilərik – Sovet dövrünə düşsə də, onu tam mənası ilə müstəqil Azərbaycanın yazıçısı saymaq olar), yarım əsrdən çoxdur ki, ilahi sözün xidmətindədir. İstedadla yanaşı, təxəyyülü, fantaziyası, hadisələrə yanaşma qabiliyyəti, çözmək bacarığı, cürəti, inanilmaz zəhmətsevərliyi ilə 18 roman, bir neçə yüz hekayə, elmi, ədəbi məqalələr, ədəbi qeydlər dəyərində internet statusları bu istedadın mübarizliyinin, iti zəkasının və sərrast qələminin məhsuludur. Yazıçı ömrünün müdriklik çağında da həmin eşq, yanğı, həvəs və güclə çalışır.

Azad müəllimə doğulanda ad qoyan insanlar necə də müdrik olublar. Həm də ad sahibi öz adının mənasını, yükünü yaxşı bilib, onu ərsəyə gətirənlərin arzusunu, ümidini doğrultmağı bacarıb.

“Azadlığın Azadı seçkin nəsrinin ən müxtəlif janrlarında azadlığı ilə məhkumluğu arasında, həyatla ilğım arasında, özü ilə qondarması arasında, varlığı ilə yoxluğu arasında çırpınanlardan yazır.”[1]

Azad müəllim “dünyanın ən böyük adamı” – anasının, eləcə də babasının, nənəsinin ibrətamiz mənəvi dünyasından bəhrələnməsəydi, sözün hər iki anlamında Azad olmazdı.

---

[1] Rahid Ulusel “Azadlığın Azadı” məqaləsindən, “Azad Qaradərəlinin söz aləmi”, Qanun, 2024, s.31.

O, azad fikirli, demokratik, sözünü qəti deməyi bacaran məsləkli insandır, zəmanənin çirkabına bulaşmayan əqidə sahibidir. İndiki zamanda M.Ə.Rəsulzadənin və Ə.Elçibəyin keşməkeşli həyatından, demokratiya uğrunda mücadiləsindən yazmaq üçün qorxmazlıq və əyilməz vicdan lazımdır. O cəsarəti, vicdanı, əqidəni Azad müəllimin özündən əvvəl, yaradıcılığında görmüşdüm, özü ilə tanış olandan sonra isə əsərlərindən təxəyyülümdə yaranan Azad Qaradərəli portreti və şəxsiyyəti tam bütövləşdi. Şəxsiyyət ilə yaradıcılıq bütövlüyünü təəssüf ki, Yaradan hər söz sahibinə nəsib eləmir.

Türk kişisi üçün ana, bacı Vətən qədər müqəddəs varlıqdır. Azad Qaradərəli söz sənətinə "anam-bacım ədəbiyyat"[1] kimi bir doğmalıqla, qayğı, saygı və hörmətlə yanaşır.

Azad müəllimin yaradıcılığının bir spesifik cəhətini də qabartmaq istərdim. XIX yüzillikdə yaranan naturalizm cərəyanına münasibət yaradıcı insanın cəsarəti ilə yanaşı, onun səmimiliyindən və təbiiliyindən xəbər verir. Bu cərəyanla yaxından təmasa bizim mental dəyərlərimizin mane olduğunu düşünənlər yanılırlar. Şərqin böyük mütəfəkkiri Mövlanaya görə, kamil insan "ya göründüyü kimi olmalıdır, ya da olduğu kimi görünməlidir". Bunu Azad müəllim yazılarının birində xüsusi vurğulayır. Həyatın özünü yazanda ona süni bər-bəzək vurmaqla, söyüşcül qəhrəmanın dilini şirin etməklə yazıçı kimisə aldatmaq istəyirsə, hər kəsin və hər şeyin təbii halından qorxub ona yalan donu geydirirsə, birinci növbədə özünü aldadır. Ədəbiyyat zövq sənətidir, zövq formalaşdırır, təbiiliyi inkar eləmək zövqü zorlamaq deməkdir. Yazıçı "Yeni ədəbi naturalizm" elmi araşdırma essesində yazır:

"Son illərdə, bəlkə də lap əvvəldən bədii yazılarımda – hekayə və romanlarımda bir xətt olub: ədəbi naturalizm. Yəni həm təbiətdə, həm cəmiyyətdə və eləcə də onların hər ikisinin güzgüsü olan ədəbiyyatda naturalizm tərəfdarı olmuşam".[2]

Azad Qaradərəlinin "Şəhərcik", "Kuma-Manıç çökəkliyi", "Əlidən bir kəm", "Morq çiçəkləri", "Morqda karantin", "Ucubuluq", romanları, "Yuvasizlar", "Küçük Allahverdi", "Burada kişi var?!", "Eteri", "Liftdə", "Özündən gözəl", "Ata və qız" və digər hekayələri yeni

---

[1] Azad Qaradərəli "Renessans həsrəti", 2-ci kitab, Alatoran, 2018, səh.313.
[2] Azad Qaradərəli "Renessans həsrəti", 3-cü kitab, Mücrü, 2022, səh.8.

ədəbi naturalizmin çağdaş ədəbi mühitdə bariz nümunələridir. Azad müəllimin yaratdığı bütün obrazlar – müsbət və ya mənfi xislətindən asılı olmayaraq, özüdür – səmimidir, təbiidir, danışığı, duruşu şablon deyil.

Əksər yazarlardan fərqli olaraq Azad müəllim həyatın özünü yazır, güzəranımızın gerçəkliklərini bütün çılpaqlığı ilə yazmaq cürəti məni onun zəngin yaradıcılığna baş vurmağa vadar etdi. Dərin düşüncə adlı mənəvi nemətə sahib olmayanlar o dəqiqə dodaq büzəcəklər ki, burda nə var, adi həyat hadisələridir, bunu yazmağa hünərmi lazımdır? Adi hadisələrə özünəxas, realist, cürətli yanaşma o hadisələri qeyri-adi edir. Bunun üçün yuxarıda sadaladığım keyfiyyətlərlə yanaşı yazıçıda müşahidə qabiliyyətli üçüncü göz olmalıdır – bəsirət gözü. Bu göz həmişə açıq olur. Belə göz sahibləri ürəyinə, istedadına, qələminə, sözə, oxucusuna xəyanət edə bilməzlər.

Həyatın daha çox boz-bulanıq üzünü görən yazıçı həmişə gənclərin hamisi və yol göstərəni olub, zəngin həyat təcrübəsindən və yaradıcılıq səriştəsindən bəhrələnərək onlara ağsaqqal məsləhəti verib. O, “bir gənc dostuna” yazır:

“Mən bu həyatı çox yaxşı tanıyıram. O insana çox amansızdır, gərək sən də ona imkan verməyəsən ki, səninlə istədiyi kimi davransın. Elə eləməlisən ki, o sənin ciddi adam olduğunu qəbul etsin. Mən hətta işsiz qalacağımı göz önünə alaraq bu həyatın əksinə getdim və həmişə belə etmişəm. Siz hələ çox kövrəksiniz. Bərkiyin ki, sizi dişinə vurmasın bu əclaf həyat! Güclənin!”[1].

Bu 5-6 cümlə gəncliyin qısa mübarizə manifestidir.

***

Bu cildə daxil olan “Xeyrat” roman-pamfletinin (yazıçı əsərinin janrını belə adlandırmasa da, mənə görə bu əsər, məhz roman-pamfletdir) qəhrəmanı Məsumə Rəhimova “Leninin övladı”dır, kommunist partiyasının kəbinsiz arvadıdır, daha doğrusu, kənizidir, hətta sevgilisini partiyaya, rejimə qurban verir. Taleyin ironiyasına baxın ki, sonda zırramanın biri olan Əpişin də arvadına çevrilir.

---

[1] Azad Qaradərəli “Renessans həsrəti”, Qanun, 2015, səh.361.

Məsumə xanım partiyadan rüşvətxorluq, tamahkarlıq, süründürməçilik, zalımlıq öyrənib. O, sosializmin, daha doğrusu, özünün də görmədiyi kommunizm kabusunun qurbanıdır. Amansız sevgi ağrısına düçar olan bədəni və ruhu ağrılara dözməyib qıvrıla-qıvrıla əzab çəkir.

Məsumə rayonun birinci katibi olub, qılıncı çox başlar kəsib, "evləndiyi" partiyanın əliylə ölənə qədər unuda bilmədiyi, bədəninə və ruhuna dinclik verməyən sevgisinin-sevgilisi Rəhman Namazovun həsrəti sızladır onu. Gözlərində "ağappaq işıqdan başqa heç nə yoxuydu", yəni zülmətdən. Vəzifə hərisliyi, "mənəmlik" azarı, hər mənada kor etmişdi onu. Bu sevgisindən ona "platonik eşq, könül ağrısı və şəkər xəstəliyi" qalmışdı.

"Bəşəriyyətə "nicat verən SSRİ boyda nəhəng "azadlıq diyarı" quran Kommunist partiyası ilə evlənənin" mənəvi gözləri doğulandan, fiziki gözləri isə müstəqillik şöləsindən kor olmalı idi...

Son anda möhtac qaldığı Əpiş də Məsuməyə naxələf çıxır (kommunist partiyası kimi), onu ürəyini partlatdığı sevgilisi Rəhmanın qəbrinin yanına gömüb, cavan Nazlını qoltuğuna alıb uzaqlaşır. Hara? Mənəviyyatsızlar dünyasına.

Məsumənin təkcə gözləri məsumluğunu qoruya bilmişdi, sonda o da sahibinə asi olub işığını ondan əsirgədi.

Bir məqamı da qeyd edim. Azad müəllim məsumluqdan uzaq, rəhmsiz partokrat qəhrəmanın adını Məsumə, soyadını Rəhimova qoymaqla kommunist partiyasına, ona vurulanlara, onunla "evlənənlərə" xatırladır ki, mənəvi dünyası ilə zahiri dünyası (adı, soyadı) tərs mütənasib olanları tarix tez çıxdaş edir...

***

Bu cildə daxil olan ikinci əsərə "Özünüyaradanlar"a Azad Qaradərəli "roman" təyini verib, mənsə traktat. Bu traktat millidir – "Siftə" ilə başlayır. Görəsən "siftə" təkcə bizim düşüncəmizin məsuludur, yoxsa, başqa xalqların da yaddaşında var?

Bu əsər roman janrında bir yenilikdir – cəmi üç surət var. Başqa nasirlərdən fərqli olaraq Yazıçıya bu obrazlar bəs edir ki, bu günkü qeyri-müəyyən cəmiyyətin məchullarını çözə bilsin. Bu üç real insa-

nın biri yerin üstünü – cəmiyyətin qanunlarını əla bilir, o biri yerin altını da görüb, üstünü də. Yazıçının da bilmədiyi nəsə yoxdur. Üç nəfərin düşüncələrindən yaranan əsər həyatın bütün sahələrini işıq tutur – hərə öz baxış bucağı ilə. Əlbəttə, o dövrün məşhur şəxsiyyətlərinin söhbətləri, xalqdan nigaran ruhları, xatirələri Yazıçının qələmə aldıqlarına rəng qatıb romanı bütövləşdirir.

"Özünüyaradanlar"ın kredosu: "Özünü dərk etməyən başqasını heç dərk etməz".

"Özünüyaranlar"da Yazıçı məhz özünü dərk edənlərlə – Filosofla, İkinci Behcətlə yola çıxır, dərdləşir, fikir mübadiləsi edir. Hətta Bakıxanovun heykəli ilə həsbi-hal edir, özünü anlayandan onun daxili aləmini zəbt edən soruya cavab istəyir. Neyləməli, səkkiz milyard həmplanetimiz olsa da, üç-beş nəfər ruh ortağımızı tapa bilmirik. Kəmiyyət çoxaldıqca keyfiyyət azalır.

Romanda məni özünə cəlb edən bəzi maraqlı məqamları xüsusi vurğulamaq məncə, söz, tarix, mənəviyyatsevərlər üçün maqraqlı olar:

1. Əmir Teymurun göstərişi ilə hadisələrin cərəyan etdiyi Zəngəzurun bu yerlərində buzovların körpə vaxtından dili kəsilir. Niyə? "Maldili" yeməkxanasının adında gizlənən tarix nə deyir?

2. Romanda tarixi şəxsiyyətlər: Sultan və Xosrov Sultanov qardaşları, Bəhlul Əfəndi, Qaçaq Fərzalı, Qaçaq İsrafil, Hacı Osman Çələbi, Mustafa Əfəndi, Məşədi Behbud, Surxay bu günün obrazları ilə dil tapa bilir.

3. Top, Sənəli, Ozan (Hozana), Qazanzəmi, Çöpədərə, Xanlıq, Maşanlı, Almalı, Qaradərə, Rəzdərə, Sobu, Hənd və digər coğrafi adlar danışan tarixdir.

4. Qara Mamedlə Gəncinskinin yolboyu söhbətləri və "Maldili" kafesində nahar romanın ən ilginc səhifələridir.

5. "Qazı Bəhlulun qazi Bəhlula çevrilməsi" daha böyük anlama sahibdir.

Yazıçının da, Filosofun da, yeraltı adamın da vəzifəsi cəmiyyətdəki "acıların düyünü"nü çözməkdi. Yaradanın da işləkləri var ha! Fağır tapan kimi nə ağır yükü varsa, belinə şəlləyir, çək ki, çəkəsən. Bilir ki, çəkəcək... Nazim Hikmətsayağı desək, mən çəkməsəm, sən çəkməsən, o çəkməsə kim çəkəcək?! Ağ əlli, bozsifət, halallıqdan bixəbər məmurmu, yaxud onun harın balasımı?

Rahatlığı da Yaradan "özündənrazı"lara ərmağan edib – təmənnasız-filansız. Bəzən onlara seçilmişlər də deyirlər. İroniyaya baxın?! Görəsən "özündənrazılar" nə vaxtdan "seçilmişlər" olublar? Kim seçdi onları?

Yazıçı romanın – mənim qənaətimə inansanız – traktatın əvvəlində yazır ki, "təndir plazmadır". Sonra da bildik ki, "sevgi də plazmadı". İndi elə zəmanədə yaşayırıq ki, tez-tez qiyməti artan, xəstəlik törədən maye (su) də, dəmləndirib boğub canlar alan qaz da, dabanımıza, alnımıza dəyən bərk daş da qorxulu düşməndir. Ən yaxşısı elə plazma imiş – təndir, sevgi plazması...

"Özünüyaradanlar" həm də ilahi eşq hekayətidir – Gül və İkinci Behcət hekayəti. Gül İkinci Behcətin xilaskarı və sədaqət rəmzidi. Zamanın sərt sınaqlarından üzüağ çıxan bu ilahi sevginin qarşısını bir qara kabus – koronavirus adlı kəmfürsət kəsdi. Onunla mübarizə asan deyildi. Bu "qaydasız oyun"da qara kabus Gülü İkinci Behcətin əlindən aldı. Ala bildimi? Yox, qırılmaz tellərlə İkinci Behcəti Gülün unudulmaz və ölməz ruhuna bağladı. İndi Gül o dünyasında tam arxayındı ki, sevdiyi insan ona əbədi sadiqdir. Axı ikinci Behcət onun "albatros"udur...

"Əsl sevgi ruha bənzəyir. Hamı onun haqqında danışır, amma çox az adam görür" (Fransua de Laroşfuko[1]). O, əbədi ruhu ancaq zəngin mənəvi dünyasına sadiq İkinci Behcət görə, dərdləşə, özününkü edə bilərdi.

***

Bu bələdçi yazımı yazıçının öz söləri ilə bitirmək istəyirəm: "Yazıçı Allahına bəndəlik edən adam olmamalıdır. Həmçinin özü elə Allah kimi bir şeydir. Allah da yaradır, yazıçı da... Yazıçı ölkənin, xalqın tarazlığını saxlayan adamdır"[2].

**Vaqif Osmanlı**
***"Sözün azadı" monoqrafiyasının müəllifi, araşdırmaçı yazar***

---

[1] https://edebiyyat.az/teqdimat/1607-rahid-ulusel-fransua-de-larosfuko-ve-onun-aforizmleri.html
[2] Azad Qaradərəli "Rnessans həsrəti", 2-ci kitab, Alatoran, 2018, səh.221.